# YIĞMA KOMANDAMIZ I YERƏ LAYİQ GÖRÜLÜB



Daxili İşlər Nazirliyinin müvafiq əmrinə əsasən, iyunun 18-19-da daxili işlər orqan və hissələri arasında estafet qaçışı üzrə komanda birinciliyi uğrunda yarış keçirilib.

Daxili Qoşunların yığma komandası 6 idmançı və 1 nümayəndə heyəti ilə yarışda təmsil olunub.

Ümumilikdə, 11 komandanın iştirak etdiyi yarışda Daxili Qoşunların yığma komandası I yerə layiq görülüb.

Yığmamızı növbəti qələbəsi münasibətilə təbrik edir, uğurlarının davamlı olmasını arzulayırıq.

**Mətbuat xidməti**

# HİKMƏTLİ SÖZLƏR

Ağzından bal axan hər bir arının unutma ki, quyruğunda iynəsi var.

Axmaq qabaqda durur ki, hamı onu görsün, ağıllı arxada durur ki, o, hamını görsün.

Boş zaman yoxdur, boşa keçən zaman var.

Böyük xoşbəxtliklər böyük əziyyətlərin başı üstündədir.

Böyük insanlar hadisələri, dahi insanlar isə nəticələri düşünür.

Bu gün həll edə bilmədiyiniz bir problemin səbəbi dünən onu doğru etmək üçün vaxt ayırmamağınızdır.

Dünyanı dəyişdirmək istəyirsinizsə, özünüzü dəyişdirin.

Düşüncəniz nədirsə, həyatınız da odur, həyatınızın gedişini dəyişdirmək istəyirsinizsə, düşüncələrinizi dəyişdirin.

Düşünmədən öyrənmək vaxt itirməkdir.

Keçmişimizə daş atmayaq ki, gələcəyimiz bizi topa tutmasın.

Nə qədər aşağıdan uçsan, düşdüyün zaman az əzilərsən.

Heç vaxt özünüzə yaxşı deməyin, inanmazlar, heç vaxt pis deməyin, şişirdərlər.

*(naməlum müəlliflərdən)*

# HƏRBİ XƏBƏRLƏR

### Yeni qumbaraatan kompleksinin təqdimatı keçirilib

Belarusun "BSVT-VV" şirkəti tərəfindən hazırlanan "MM-60" yüngül qumbaraatan kompleksinin təqdimatı olub.



Qumbaraatan kompleksi 60 mm kalibrlidir. Qumbaraatan kompleksinin bütövlükdə 2018-ci ildə sınaqdan keçirilməsi gözlənilir.

Kompleksin döyüşə hazır vəziyyətdə tam çəkisi 5 kiloqramdan çox deyil. Atış məsafəsi isə 500 metrə qədərdir.

### İsrail yeni yaylım atəş sistemi hazırlayır

İsrailin "IMI Systems" şirkəti xüsusi təyinatlı qoşunların təchizatı üçün atış məsafəsi 35 kilometr olan "C-LYNX" adlı yaylım atəşi sistemi hazırlayır.

Sistem 122 mm çaplı ACCULAR raketlərlə atəş açır. Raketlərin döyüş başlığı 20 kiloqramdır. Avtomobilin arxa hissəsində 4 raket yerləşdirilib. Bu raketlər avtomobilin kabinəsindən idarə olunmaqla məsafəyə uyğun olaraq istiqamətlənir.



Raketlərin maksimal hərəkət radiusu 40 kilometr təşkil edir. Yeni sistem hədəfləri yüksək dəqiqliklə vura bilir.

### Özüyeriyən minaatanın yeni nümunəsi yaradılıb

"Tiqr-M" zirehli avtomobilinin şassisi üzərində qurulan 120 mm-lik özüyeriyən minaatan kompleksinin yeni nümunəsi "Geodeziya" Elmi-Tədqiqat İnstitutunun poliqonunda keçirilən "Krasnoarmeysk" turnirində ilk dəfə təqdim olunub.



Bu kompleksin istehsalçısı "Uralvaqonzavod" və "Motovilixinskiy zavod" şirkətləridir.

Məsafədən idarəolunan minaatan qurğusu hidropnevmatik dayaqlarla "Tiqr-M" zirehli avtomobilinə inteqrasiya olunub.

*"Azeridefence"*

# SAVADLI, BACARIQLI QADIN HƏRBİ QULLUQÇULARIMIZLA FƏXR EDİRİK

***Daxili Qoşunların sıralarında nümunəvi xidməti, nizam-intizamı, bacarığı ilə fərqlənən qadın hərbi qulluqçularımız çoxdur. Qəzetimizin demək olar ki, hər sayında həmin qadın hərbçilərimiz barədə oxuculara məlumat veririk. Bu dəfə Daxili Qoşunların 99713 saylı hərbi hissəsinin daha iki qadın hərbi qulluqçusu haqqında danışmaq istəyirəm.***



Əsgər Elmira Cavadova 1991-ci il oktyabr ayının 2-də İmişli rayonunda anadan olub. Orta təhsilini Bakı şəhəri Nizami rayonunda yerləşən 10 saylı orta məktəbdə alıb. Orta təhsilini başa vurduqdan sonra 2009-cu ildə Bakı Dövlət Universitetinin Geologiya fakültəsinə qəbul olunub. 2013-cü ildə universiteti fərqlənmə diplomu ilə bitirən, savadlı gənc xanımın qismətində öz ixtisası üzrə çalışmaq deyil, dövlətə, Vətənə xidmət etmək varmış. Vətənə olan hədsiz sevgisi 2016-cı ildə E.Cavadovanı Daxili Qoşunların sıralarına gətirir. Elə həmin ildən bu günə kimi o, 99713 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi bölməsinin götürmə qrupunda atıcı vəzifəsində xidmət edir. Çalışqanlığı, intizamı ilə seçilən əsgər E.Cavadova ilk günlərdən hissə komandanlığının dərin rəğbətini qazanıb. Nümunəvi xidmətinə görə dəfələrlə hissə komandanlığı tərəfindən mükafatlara layiq görülüb.

Xidmətdə hər zaman əzmkarlıq, dözüm nümayiş etdirən hərbi qulluqçumuz ölkəmizdə keçirilən bir sıra mötəbər idman tədbirlərində, o cümlədən ötən ay respublikamızda təntənəli şəkildə keçirilən "IV İslam Həmrəyliyi Oyunları" zamanı Daxili Qoşunları layiqincə təmsil edərək, nəzarət-buraxılış məntəqələrində ictimai təhlükəsizliyin təmin olunmasında, xidmətin qüsursuz şəkildə başa vurulmasında əlindən gələni əsirgəməyib.

Hər zaman öz üzərində səylə çalışan, kollektiv içində hörmət qazanan əsgər E.Cavadova bundan sonra da verilən tapşırıqları tam və keyfiyyətlə yerinə yetirəcəyinə, hərbi hissə komandanlığının ona olan etimadını hər zaman doğruldacağına söz verdi.

Hərbi hissənin digər nümunəvi, hərbçi şərəfini ləyaqətlə qoruyan qadın hərbi qulluqçumuz əsgər Həqiqət Atayevadır.

O, 1993-cü il avqustun 23-də Bakı şəhərində dünyaya göz açıb. 2010-cu ildə 37 saylı orta məktəbi bitirən H.Atayeva bir il sonra Bakı Dövlət Rabitə və Nəqliyyat Kollecinə qəbul olub.

Hələ uşaqlıqdan hərbçi olmaq arzusu ilə yaşayan H.Atayeva nə vaxtsa, bu arzusunun reallaşacağına inanırdı. Elə bu istəklə də o, 2016-cı ilin may ayında Daxili Qoşunlara həqiqi hərbi xidmətə qəbul olunur. Hazırda 99713 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi bölməsinin götürmə qrupunda atıcı əsgər vəzifəsində xidmətini davam etdirir.

Xidmətə başladığı ilk günlərdən etibarən məsuliyyəti, bilik və bacarığı ilə diqqət çəkməyi bacarıb. Qısa müddət ərzində xidmət etməsinə baxmayaraq, o, funksional vəzifələrini dərindən mənimsəmək, qoyulmuş tapşırıqları vaxtında və keyfiyyətlə yerinə yetirmək üçün bütün səylərini cəmləşdirir. Vəzifə borclarının icrasına məsuliyyətlə yanaşdığına, şəxsi nümunə, yüksək hərbi intizam nümayiş etdir-diyinə görə həm hissə komandanlığının, həm də xidmət yoldaşlarının rəğbətini qazanıb.

Şəxsi heyət arasında sağlam mühitin formalaşmasında yaxından iştirak edən əsgər H.Atayeva verilən tapşırıqların icrasına məsuliyyətlə yanaşır. O bildirir ki, hər bir insan gördüyü işin məsuliyyətini dərk etsə, o zaman doğma torpağımız günü-gündən çiçəklənər və inkişaf edər.

Daxili Qoşunlarda xidmət etdiyi üçün hər zaman qürur duyduğunu söyləyən əsgər H.Atayeva bundan sonra da xidməti vəzifə borclarının icrasına vicdanla yanaşacağını bildirdi.

Biz də hərbi qulluqçularımıza nailiyyətlərinin davamlı olmasını arzulayırıq.

**leytenant N.Ağayeva**

# YOL HƏRƏKƏTİ QAYDALARINI NİZAMLAYAN NİŞANLARIN MƏNALARI

*(əvvəli ötən saylarımızda)*

### Qadağa nişanları

Qadağan nişanları yol hərəkəti iştirakçılarının hərəkətlərinə müəyyən məhdudiyyətlər qoyur, yaxud ləğv edir. Onların dairəvi forması, ağ fonu, bəzilərinin isə mavi və qırmızı haşiyəsi vardır. 3.1, 3.21, 3.23, 3.25 və 3.31 nişanlar rəngli tərtibatla fərqlənirlər.

Qadağan nişanları müvafiq məhdudiyyətin qoyulduğu küçə və yolların sahələrinin bilavasitə qabağında və ya onun ləğv edildiyi yerlərdə quraşdırılır. Qadağan nişanları əvvəlcədən 7.1.1 lövhəciyi ilə quraşdırıla bilər. Bəzi qadağan nişanları müvafiq nəqliyyat vasitələrinin hər iki istiqamətdə hərəkətini qadağan edir.

Qadağan nişanlarının qüvvəsi aşağıdakılara şamil edilmir:

1) ümumi istifadədə olan nəqliyyat vasitələrinə;

2) işarələnmiş sahədə yerləşən müəssisələrə xidmət edən, habelə bu sahədə yaşayan və ya işləyən vətəndaşlara xidmət edən və ya məxsus olan nəqliyyat vasitələrinə.

Belə hallarda, nəqliyyat vasitələri işarələnmiş sahəyə təyinat yerinə ən yaxın olan yolayrıcından girib-çıxmalıdırlar;

3) taksometri işləyən taksilərə;

4) I və II qrup əlillərin idarə etdiyi 5.15 fərqləndirici nişana malik nəqliyyat vasitələrinə.

### Məcburi hərəkət istiqaməti nişanları

Məcburi hərəkət istiqaməti nişanları sürücülərə nəqliyyat vasitələrinin hərəkətinin icazə verilmiş istiqamətini, sürətini müvafiq nəqliyyat vasitələrinin hərəkətini, eləcə də piyadaların hərəkəti üçün nəzərdə tutulan yolları göstərir.

Bu nişanların dairəvi forması və mavi fonu vardır.

Sola dönməyə icazə verən nişanlar geriyə dönməyə də icazə verir.

Yol sahəsinin başlanğıcında qurulmuş nişan ən yaxın yolayrıcına qədər qüvvədə olur. Bu nişan həyətlərə və yola bitişik digər ərazilərə girmək üçün sağa dönməyi qadağan etmir.

### Məlumatverici-göstərici nişanlar

Məlumatverici-göstərici nişanlar hərəkətin müəyyən rejimini tətbiq və ya ləğv edirlər, eləcə də yaşayış məntəqələrinin və başqa obyektlərin yerləşməsi barədə məlumat verirlər.

Bu nişanların düzbucaq forması vardır, sürücülərin və hərəkətin digər iştirakçılarını yolun vəziyyətinin xüsusiyyətləri, yaşayış məntəqələrinin adları, onların keçmə qaydaları, küçələrin və yolların ayrı-ayrı sahələrində hərəkət rejiminin müəyyənləşdirilməsi üçün nəzərdə tutulmuşdur. Bu qrup nişanların müxtəlif fonları vardır. Yaşıl fon avtomagistral, göy fon bütün başqa avtomobil yolları, ağ fon yaşayış məntəqəsi əlaməti deməkdir. İşarələrin sarı fonu yolun təmir olunan hissələrinin yanından keçmə üçün tətbiq olunur.

### Servis nişanları

Servis nişanları yollarda müvafiq obyektlərin yerləşməsi barədə məlumat verir.

Bu nişanların düzbucaq forması, enli mavi haşiyəsi vardır.

Müvafiq rəmzlər ağ fon üzərində təsvir olunur. Servis nişanları yaşayış məntəqələrində bilavasitə obyektlərin yanında və ya onlara dönəcək yerlərdə quraşdırılır. Yaşayış məntəqələrindən kənar yollarda nişanlar əvvəlcədən göstərilən obyektdən 60-80 km, 15-20 km və 400-800 metr aralıda quraşdırılır. Yaşayış məntəqələrinin yollarında onları əvvəlcədən, göstəriləcək obyektlərdən 100-150 metr aralı məsafədə və onlara yaxın dönəcək yerlərdə quraşdırırlar.

### Əlavə məlumat nişanları

Əlavə məlumat nişanları (lövhəciklər) birlikdə tətbiq olunduğu nişanların təsirini dəqiqləşdirir və ya məhdudlaşdırırlar.

Lövhəciklər birlikdə tətbiq olunduqları yol nişanının bilavasitə altında yerləşdirilirlər. Yolun hərəkət hissəsinin qırağında və ya səkinin üstündə asıldıqda, əlavə məlumat nişanları yol nişanlarının yan tərəfində yerləşdirilir.

### Yolun nişanlanması

Yolun nişanlanması (5 saylı Əlavə) yol hərəkətinin nizamlanmasının səmərəli vasitələrindən biri olmaqla, nəqliyyat axınının qaydaya salınmasına və yolun buraxılış qabiliyyətinin yüksəldilməsinə xidmət edir.

Yol nişanlanmasına hərəkət təhlükəsizliyini artırmaq məqsədi ilə yol hərəkəti qaydalarını müəyyənləşdirən, yol qurğularının ölçülərini və ya yolun istiqamətini bildirən, yolun hərəkət hissəsinə, yolun və yol qurğularının digər elementlərinə çəkilən xətlər, yazılar və digər qeydlər aiddir. Yol nişanlanması müstəqil şəkildə, habelə yol nişanları və svetoforlarla birlikdə tətbiq olunur.

Yolun nişanlanmasının aşağıdakı formaları vardır:

1) üfüqi;

a) uzununa;

b) köndələninə;

c) digərləri;

2) şaquli.

Yolun nişanlanması yol hərəkətinin təşkilinə, yol hərəkəti iştirakçılarının xəbərdar edilməsinə və istiqamətləndirilməsinə xidmət edir. Ondan müstəqil şəkildə ayrıca və ya tələblərini dəqiqləşdirdiyi və yaxud tamamladığı yol nişanları ilə birgə istifadə edilir.

Yolun üfiqi nişanlanması müəyyən hərəkət rejimini və hərəkət tərzini müəyyən edir, yolun hərəkət hissəsinə, sarı rənglə olan ağ rəngdə çəkilir.

Yol qurğularının elementlərinə (körpülərə, dəmiryol keçidlərinə, dayaq qurğularına və s.) hasarlara, sütunlara, eləcə də yollarda olan və hərəkət üçün təhlükə yaradan digər obyektlərin üzərinə, onların ölçülərini göstərmək və həmçinin sürücülərin gözlə istiqaməti müəyyənləşdirməsinə kömək etmək məqsədilə, ağ və qara rəngli zolaq şəklində şaquli nişanlama çəkilir.

**Daxili Qoşunların Baş İdarəsinin Maddi-texniki təminat İdarəsində Avtomobil və zirehli texnika şöbəsi**

## Allah rəhmət eləsin

Daxili Qoşunlar Komandanlığı və şəxsi heyəti 25031 saylı hərbi hissənin komandiri polkovnik Salamat Cəfərova **anasının** vəfatından kədərləndiyi bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: X.Hacızadə

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonu : (012) 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

ƏSGƏR

№ 13 (504)
30 iyun
2017-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# PREZİDENT İLHAM ƏLİYEV DAXİLİ İŞLƏR NAZİRLİYİNİN DAXİLİ QOŞUNLARININ ŞİRVAN ŞƏHƏRİNDƏKİ "N" SAYLI HƏRBİ HİSSƏSİNİN AÇILIŞINDA İŞTİRAK EDİB

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 23-də Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Şirvan şəhərində yerləşən hərbi hissəsinin açılışında iştirak edib.***

***AZƏRTAC xəbər verir ki, Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov dövlətimizin başçısına raport verdi.***



Prezident İlham Əliyevə məlumat verildi ki, hərbi hissədəki yeni binaların inşasına 2012-ci ildə başlanıb və 2017-ci ilin mayında inşaat işləri başa çatdırılıb. Ümumi ərazisi 8,5 hektar olan hərbi hissədə qərargah, kazarma binaları, yeməkxana, tibb məntəqəsi və digər binalar inşa edilib. Binalar mərkəzləşdirilmiş mühəndis kommunikasiya, o cümlədən elektrik, su-kanalizasiya, havalandırma sistemləri, mebel və inventarlarla təchiz edilib. Ərazidə avtomobil parkı, atış şəhərciyi, qarovul məntəqəsi, anbarlar, müasir hamam-camaşırxana kompleksi də yaradılıb. Həmçinin hərbi hissədə 8 min kvadratmetr ərazidə sıra meydanı da var. Hərbi hissənin tədris bölməsində atəş, rabitə, taktiki hazırlıq, avtomobillərin idarə edilməsi, yol hərəkətinin təşkili və aşpazların hazırlanması sinifləri də hərbçilərin istifadəsinə verilib. Sinif otaqlarının hamısı zəruri inventar, o cümlədən əyani vəsaitlə təchiz olunub. Hərbi hissənin həyətində idman qurğuları da quraşdırılıb. Gələcəkdə burada dördmərtəbəli kazarmanın inşası planlaşdırılır.





Qərargah binasının foyesində Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin ordu quruculuğuna diqqət və qayğılarını əks etdirən fotostend yaradılıb. Binadakı brifinq və xidməti otaqlar zəruri inventarla təchiz olunub. Burada hərbçilərin yüksək səviyyədə xidmət aparmaları üçün hərtərəfli şərait yaradılıb.

Dövlətimizin başçısı əsgər kazarmasında da oldu. Müasir səviyyədə yaradılan kazarmada əsgərlərin qalmaları və istirahət etmələri üçün bütün şərait var. Kazarmalar isti döşəmə, həmçinin, kondisionerlə təchiz olunub. Kazarmada əsgərlərin asudə vaxtının səmərəli təşkili üçün də geniş imkanlar mövcuddur. Burada ideoloji və məişət otaqları, əmlak anbarı və bərbərxana da əsgərlərin ixtiyarına verilib. Bir sözlə, buradakı şərait Azərbaycan dövlətinin ordu quruculuğu, o cümlədən Daxili Qoşunların hərbçilərinin xidmət şəraitlərinin daha da yaxşılaşdırılması istiqamətində atılan addımların ardıcıl xarakter aldığını göstərir. Bu, həm də onu göstərir ki, Azərbaycan əsgəri bu gün ən müasir hərbi hissələrdə xidmət keçir. Bu isə şübhəsiz ki, Ali Baş Komandanın diqqəti və qayğısı sayəsində mümkün olub.

Sonra dövlətimizin başçısı Daxili Qoşunların hərbi silah-sursat və texnikası ilə tanış olub. Bu gün Daxili Qoşunlar istər döyüş qabiliyyəti, istər maddi-texniki təchizat, istərsə də hərbi-texniki avadanlıqlara görə ən müasir hərbi birləşmələrdən biridir. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin vahid sisteminin mühüm struktur hissələrindən biri olan Daxili Qoşunlar cəmiyyətin və dövlətin mənafeyinin, vətəndaşların konstitusion hüquqlarının və azadlıqlarının cinayətkar qəsdlərdən qorunması, mühüm dövlət obyektlərinin, kommunikasiya qurğularının mühafizəsinin həyata keçirilməsi, ictimai asayişin mühafizəsi və qanunvericiliklə müəyyən edilmiş digər vəzifələri layiqincə yerinə yetirir.

Sonra Prezident İlham Əliyev hərbi hissənin əsgər yeməkxanasında yaradılan şəraitlə tanış olub. Burada əsgərlərin qidalanmaları üçün bütün zəruri şərait yaradılıb. Yeməkxanada eyni vaxtda 320 əsgər qidalana bilər. Yeməkxananın çörək, balıq, ət, tərəvəz, quru ərzaqlar və sinif otaqları da var.

Hərbi hissənin tibb məntəqəsi də müasir səviyyədədir. Burada hərbi qulluqçulara yüksək səviyyədə tibbi xidmət göstərmək üçün zəruri şərait yaradılıb. Məntəqədə palatalar, aptek, yeməkxana, sarğı və digər zəruri otaqlar var. Burada hərbi qulluqçulara fizioterapiya, stomatoloji və başqa tibbi xidmətlər göstəriləcək.

Hərbi hissənin ərazisində geniş abadlıq işləri aparılıb, yaşıllıqlar salınıb.









# HƏRBİ QULLUQÇULARIMIZ "FORMULA-1 AZƏRBAYCAN QRAN PRİ" YARIŞLARI ZAMANI QARŞIYA QOYULMUŞ TAPŞIRIQLARI LAYİQİNCƏ YERİNƏ YETİRİBLƏR

İyunun 23-25-də Bakı şəhərində keçirilmiş "Formula-1 Azərbaycan Qran Pri" yarışları bir daha sübut etdi ki, Azərbaycan istənilən beynəlxalq yarışa ev sahibliyi etmək qüdrətindədir. Reytinqinə görə dünyada 3-cü maraq doğuran bu idman yarışı ölkəmizin yüksək təşkilatçılıq bacarığını növbəti dəfə təsdiq etdi.



"Formula-1 Azərbaycan Qran Pri" yarışları zamanı təhlükəsizlik tədbirləri də yüksək səviyyədə həyata keçirilmişdir. Belə ki, paytaxtımızda ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunmasında polis əməkdaşları ilə birlikdə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti də qarşıya qoyulmuş tapşırıqların icrasına tam məsuliyyətlə yanaşmaqla üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlmişdir.



Yarışa hazırlıqla əlaqədar Daxili Qoşunların komandanlığı tərəfindən sıra baxışları keçirilmiş, xidmətə cəlb olunan şəxsi heyətin zahiri görünüşü, texnika və mühəndis əmlaklarının sazlığı yoxlanılmış, mövcud çatışmazlıqların aradan qaldırılması üçün müvafiq tapşırıqlar verilmişdir.





Yarış zamanı marşrut üzrə perimetr boyu ərazilərin mühafizəsi təmin edilmiş, mühəndis-istehkam qrupları tərəfindən tamaşaçılar üçün quraşdırılmış tribunalar və digər obyektlər öncədən yoxlanılaraq müvafiq qaydada aidiyyəti üzrə mühafizəyə verilmişdir. Nəzarət-buraxılış məntəqələrində polis əməkdaşları ilə birlikdə buraxılış rejimi təmin olunmuş, hərəkət icazəsi olan mülki avtomobillərin yoxlanılması zamanı xidməti itlərdən də geniş istifadə edilmişdir. Qeyd olunan istiqamətlər üzrə qarşıya qoyulmuş tapşırıqlar tam həcmdə yerinə yetirilmiş, xidmətin aparılmasında hər hansı nöqsana yol verilməmişdir.

Xidmətə cəlb olunan hərbi qulluqçularla aparılan izahat işləri, o cümlədən onların mənəvi-psixoloji və fərdi keyfiyyətlərinə xüsusi diqqətin yetirilməsi nəticəsində vətəndaşlarla, xüsusən əcnəbi qonaqlarla ünsiyyətdə etik davranış qaydalarına ciddi əməl olunmuşdur.

Yarış zamanı xidmətin keyfiyyətli təşkili üçün bütün profilaktik tədbirlər görülmüş, şəxsi heyətin daşınması, onların qidalanması, hərbi qulluqçulara tibbi xidmətin göstərilməsi, asudə vaxtının səmərəli təşkili də xüsusi diqqət mərkəzində saxlanmışdır.



Mötəbər tədbir zamanı ictimai təhlükəsizliyin təmin olunmasında kifayət qədər təcrübəyə malik olan Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti bu dəfə də qarşıya qoyulmuş bütün tapşırıqları müvəffəqiyyətlə yerinə yetirmişdir.

**Mətbuat xidməti**

# BEYNƏLXALQ ƏHƏMİYYƏTLİ TƏDBİR BAŞA ÇATDI

Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycandakı nümayəndəliyinin təşəbbüsü ilə Bakı şəhərində yerləşən "CHİRAG PLAZA" HOTEL & Business Center"də Daxili İşlər Nazirliyinin əməkdaşlarının və Daxili Qoşunların hərbi qulluqçularının iştirakı ilə "Beynəlxalq polis standartları" və "Beynəlxalq humanitar hüquq" mövzularında seminar keçirilib.

İyun ayının 12-dən 17-dək davam edən tədbirdə Daxili Qoşunların Baş İdarəsindən 1 nəfər, Ali Hərbi Məktəbdən 3 nəfər və hərbi hissələrdən 11 nəfər olmaqla, ümumilikdə, 15 nəfər hərbi qulluqçu iştirak edib.

Seminarın ilk günündə beynəlxalq humanitar hüququn mahiyyəti, məqsədi, rolu haqqında seminar iştirakçılarına məlumat verilib. Bildirilib ki, beynəlxalq humanitar hüquq silahlı münaqişələrin təsirlərini azaldan qaydalar toplusudur. O müharibələr zamanı insanların təhlükəsizlik və ləyaqətinin qorunmasını təmin etmək üçün ən güclü vasitələrdən biri hesab olunur, müharibədə məhdudiyyətlərin olması prinsipini əsas tutaraq humanistliyi saxlamağa çalışır. Həmçinin, qeyd olunub ki, beynəlxalq humanitar hüquq münaqişə tərəflərinin hərbi əməliyyatlar keçirməsini tənzimləyir, düşmən əlində olan şəxsləri qoruyur.

Sonra Beynəlxalq Qızıl Xaç Komitəsinin eksperti Halit Bulanık tərəfindən DİN-in polis əməkdaşlarına "Polis etikası", "Həbs və hüquqi təminatlar", "Hüquq-mühafizə orqanlarının işçiləri tərəfindən gücdən istifadə barədə beynəlxalq standartlar", "İctimai asayişin qorunması zamanı humanitar prinsiplər və beynəlxalq polis standartları", "Beynəlxalq standartlar və Azərbaycan qanunları" mövzusunda brifinqlər nümayiş etdirilib.




Beynəlxalq Qızıl Xaç Komitəsinin digər eksperti Gio Taradze isə Daxili Qoşunların hərbi qulluqçularına "Beynəlxalq humanitar hüququn mənbələri. İstifadə olunan terminlər", "Beynəlxalq humanitar hüquq və silahlar", "Silahlı münaqişə zamanı hədəfalma", "Beynəlxalq humanitar hüququn inteqrasiyası və döyüşün aparılma qaydaları", "Beynəlxalq humanitar hüquq. Komandir məsuliyyəti", "Əməliyyatların aparılması zamanı beynəlxalq humanitar hüququn tətbiqi", "Beynəlxalq Qızıl Xaç Komitəsi : mandatı və fəaliyyəti" və digər mövzularda məşğələlər keçirilib, "Müharibə və ləyaqət" sənədli filmi nümayiş etdirilib.

Seminarda silahlı münaqişələr zamanı əsir düşmüş şəxslərlə beynəlxalq qaydalara uyğun rəftar edilməsi barədə geniş müzakirələr də aparılıb.

Seminarın sonunda iştirakçılara sertifikatlar təqdim edilib.

**leytenant N.Ağayeva**

# DAXİLİ QOŞUNLARDA QURUCULUQ İŞLƏRİ UĞURLA DAVAM ETDİRİLİR

***Təlim mərkəzində görülən bütün işlər şəxsi heyətlə keçirilən döyüş təlimi prosesinin keyfiyyətinin daha da artırılmasına geniş imkan verəcəkdir***



Bu gün Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının maddi-texniki bazasının gücləndirilməsi istiqamətində əhatəli və planlı tədbirlər həyata keçirilməkdədir.

Son illər ərzində qoşunların Bakı şəhərində, eləcə də regionlarda yerləşən hərbi hissələrində geniş abadlıq-quruculuq işləri aparılıb, yeni hərbi şəhərciklər, əsgər kazarmaları tikilib, zabit, gizir və müddətdən artıq xidmət edən hərbi qulluqçular üçün hərtərəfli şəraitə malik yaşayış kompleksləri, modul tipli yataqxanalar istifadəyə verilib.





Daxili Qoşunların Qaraheybətdə yerləşən Təlim Mərkəzində aparılmış əsaslı quruculuq və abadlıq işləri də həyata keçirilən tədbirlərin tərkib hissəsidir.

Belə ki, görülən işlər nəticəsində təlim mərkəzində bir sıra taktiki şəhərciklər - tək əsgərin təlim zolağı şəhərciyi, mühəndis şəhərciyi, kimya şəhərciyi, Daxili Qoşunların taktiki hazırlıq şəhərciyi, xüsusi texnika, silah və vasitələr üzrə təlim şəhərcikləri də salınıb, xüsusi əməliyyatların keçirilməsi zamanı istifadə olunan 200 nəfərlik çadırlar quraşdırılıb.

Bundan başqa, 1247 kv metrlik ərazidə 358 nəfərlik ikimərtəbəli bina inşa olunub. Şəxsi heyətin vaxtlı-vaxtında qidalanmasını təşkil etmək məqsədilə 100 nəfərlik yeməkxana, həmçinin hamam, sanitar qovşaq, qazanxana binası, 400 kubmetrlik su anbarı, 300 kub metrlik ehtiyat su anbarı, səhra avtoparkı, atəş şəhərciyi, sıra meydanı inşa edilib, əraziyə asfalt örtüyü döşənib, idman şəhərciyi salınıb.

Bir sözlə, təlim mərkəzində görülən bütün işlər şəxsi heyətlə aparılan döyüş təlimi prosesinin keyfiyyətinin daha da artırılmasına geniş imkan verəcəkdir.

# HƏRBİ HİSSƏLƏRİN NÖVBƏTİ İLDÖNÜMÜ TƏNTƏNƏ İLƏ QEYD EDİLİB

***Bu münasibətlə Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı hərbi hissələrin şəxsi heyətinə təbrik məktubu ünvanlayıb***

İyunun 30-da Daxili Qoşunların 17072 və 17074 saylı hərbi hissələrin yaradılmasının 25-ci ildönümü tamam olub. Bu münasibətlə hərbi hissələrdə təntənəli mərasim keçirilib.

Tədbir Azərbaycan xalqının Milli Lideri Heydər Əliyevin və torpaqlarımızın bütövlüyü uğrunda həlak olmuş hərbi qulluqçularımızın əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanıb, Dövlət Himni ifa olunub.

İlk olaraq çıxış edən hərbi hissə komandirləri şəxsi heyətin üzərinə düşən xidməti vəzifə borclarını, eləcə də qarşıya qoyulmuş bütün tapşırıqları tam və keyfiyyətlə yerinə yetirdiyini bildirərək, xidməti-döyüş fəaliyyətində və hərbi intizamın möhkəmləndirilməsində yüksək nailiyyətlər əldə etdiyini vurğulayıblar.

Qeyd olunub ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Daxili Qoşunlara göstərdiyi xüsusi diqqət və qayğının nəticəsidir ki, bu gün hərbi hissələrimizin maddi-texniki tədris bazasının gücləndirilməsi istiqamətində effektiv tədbirlər həyata keçirilir, hərbi qulluqçuların peşəkarlığı günügündən artırılır.

Sonra Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun ildönümü münasibətilə hərbi hissələrin şəxsi heyətinə ünvanladığı təbrik məktubu oxunub.

Təbriklərdə vurğulanıb ki, hərbi hissələrimiz ötən müddət ərzində təqdirəlayiq xidmət təcrübəsi toplayıb, aparılan abadlıq-quruculuq işləri nəticəsində şəxsi heyətin xidmət və məişət şəraitinin yaxşılaşdırılması istiqamətində nəzərəçarpacaq irəliləyişlər əldə olunub.

Məktubda, həmçinin, şəxsi heyətin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Daxili Qoşunlara göstərdiyi etimadı doğruldacağına, Daxili Qoşunların qəhrəmanlıq ənənələrini davam etdirəcəklərinə, ləyaqətli xidmət nümunəsi göstərəcəklərinə əminlik ifadə olunub.

Daha sonra ildönümü münasibətilə xidmətdə fərqlənən hərbi qulluqçuların mükafatlandırılması barədə hərbi hissə komandirlərinin əmrləri elan edilib və mükafatlar təqdim olunub.

Tədbir şəxsi heyətin təntənəli keçidi ilə başa çatıb.

Onu da qeyd edək ki, iyunun 27-də 16076 saylı hərbi hissənin yaradılmasının 14-cü ildönümü tamam olub.

**Mətbuat xidməti**



# HƏRBİ QULLUQÇULARIMIZ MİLLİ QƏHRƏMAN MÜBARİZ İBRAHİMOVUN MƏZARINI ZİYARƏT EDİBLƏR

***Azərbaycan hər zaman sinəsini düşmən gülləsinə sipər edən cəsur, vətənpərvər oğullarıyla fəxr edir, onları daim dərin ehtiramla yada salır. Şərəf və böyük iftixar hissi ilə yad edilən milli qəhrəmanlarımızdan biri də Mübariz İbrahimovdur.***

Onun xalqımızın qəhrəmanlıq tarixində qoyduğu silinməz izlər bu gün də gənclərə nümunə olaraq göstərilir.

Mübariz haqqında çox yazılıb, çox deyilib. Xalqımız var olduqca da yazılacaq, deyiləcək. O, həmişə qəlblərdə yaşayacaq, sevgiylə anılacaq. Çünki xalq Vətən uğrunda şəhid olanları heç vaxt unutmur.

Daxili Qoşunların hərbi qulluqçuları şəhidlərimizi hər zaman ehtiramla xatırlayır və məzarlarını ziyarət edirlər. Torpaqlarımızın bütövlüyü uğrunda son damla qanınadək vuruşan, öz ölümü ilə ölümsüzlüyü qazanan Milli Qəhrəmanımız M.İbrahimovun dəfn edildiyi gündən yeddi il keçməsinə baxmayaraq, o, hər il məzarı başında ehtiramla anılır.

İyunun 20-də hərbi qulluqçularımız şəhidimizin məzarını ziyarət ediblər. Belə ki, Daxili Qoşunların bir qrup hərbi qulluqçusu II Fəxri Xiyabana gedərək onun məzarı üzərinə tər qərənfillər düzüblər. Mübariz İbrahimovun şücaəti haqqında xidmətə yeni qəbul olunan əsgərlərə məlumat verilib.





Ürəyi Vətən sevgisiylə alışıb yanan, illər öncə Daxili Qoşunların müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu olmuş qəhrəmanımızın keçdiyi döyüş yolunun gənc nəslə nümunə olduğu vurğulanıb.

Qeyd olunub ki, ömrünün 22-ci baharında uzun müddətdən bəri düşündüyü planını həyata keçirmək məqsədilə düşmənlə təmas xəttində 1 kilometrlik neytral məsafəni keçərək, mənfur düşmənə sarsıdıcı zərbələr vuran qəhrəmanımız altı saatdan çox təkbaşına döyüşüb, düşmənin ağlasığmaz sayda zabit və əsgərini məhv edib. Yağı düşməni sözün əsl mənasında vahimə içərisində saxlayan igidimizin cəsədi 141 gündən sonra ölkəmizə təhvil verilib və noyabrın 7-də böyük ehtiramla II Fəxri Xiyabanda dəfn olunub.

Fəxrlə qeyd etmək lazımdır ki, günü-gündən qüvvətlənən Azərbaycan ordusunun Mübariz kimi oğulları çoxdur və onların hər birinin qəlbi Mübariz kimi Vətənə sevgi, məhəbbət hissləri ilə döyünür. Gün gələcək bu oğullar həm Mübarizin, həm onun kimi şəhid olan neçə-neçə oğullarımızın qisasını alacaqlar!

**Mətbuat xidməti**

## ŞƏHİDLƏRİMİZ

# ANDINA SADİQ QALDI...

**Barlı-bərəkətli torpağı, zəhmətkeş insanları və qəhrəman oğulları ilə sayılıb-seçilən Cəlilabad...**

**"Torpağı qorumadınsa, əkib becərməyə dəyməz. Əkib-becərmədinsə, qorumağına dəyməz!" - prinsipi hələ ulu Dədə Qorqud zamanından da xeyli əsrlər əvvəl bu yurdun sakinlərinin ruhuna hakim kəsilib. Torpağa, halal zəhmətə son dərəcə bağlı olan cəlilabadlılar, əsrlər boyu yurdumuza göz dikən yağı düşmənlərimizə qarşı son damla qanlarınadək vuruşmuş, Vətənimizin müdafiəsində mətin dayanmışlar.**

**XX əsrin sonlarında yenidən fəallaşan erməni daşnak qüvvələrinə qarşı mübarizədə də minlərlə cəlilabadlı yaxından iştirak etmişdir. Bu elin yüzlərlə igid oğlu müqəddəs Vətən torpağı uğrunda şəhid olmuşdur. Cəlilabadın şəhidlik zirvəsinə yüksəlmiş igid oğullarından 4 nəfəri - baş leytenant Eynullayev Oqtay Əhməd oğlu, sıravilər Musayev Əli Becan oğlu, Niftullayev Vüqar Mirzəbala oğlu və Niftullayev İnqilab Xudaverdi oğlu məhz Daxili Qoşunların sıralarında döyüşmüşlər.**

**Onlardan biri - Daxili Qoşunların sıravi hərbi qulluqçusu, şəhid Vüqar Niftullayevin həyat və döyüş yolu barədə məlumatı təqdim edirik.**



NİFTULLAYEV VÜQAR MİRZƏBALA OĞLU

Sıravi V.Niftullayev Cəlilabad rayonunun Şəhriyar kəndində dünyaya göz açıb. Mirzəbala kişinin və Mərviyyə ananın böyüdüb tərbiyə etdikləri on övladdan biri idi Vüqar. Orta təhsilini doğma Şəhriyar kənd orta məktəbində alıb. Oxuduğu sinfin əlaçı şagirdlərindən olan Vüqarın humanitar elmlərlə yanaşı, texniki elmlərə də böyük marağı vardı. Bilik və bacarığı ilə diqqəti cəlb edən bu yeniyetmənin gələcəyinə müəllimləri də böyük ümidlə baxırdılar. Kim bilir, bəlkə də Vüqar gələcəyin tanınmış ziyalısı, elm, mədəniyyət xadimi olacaqdı? Lakin mənfur qonşularımızın torpaqlarımıza yenidən başlayan məlum təcavüzü, bunun ardınca baş verən amansız müharibə bir çox gənclərimiz kimi bu igidin də həyatını yarımçıq qoydu. 1992-ci ildə xalqımızın başına çox faciələr, çox müsibətlər gəldi. Əsrin ən qanlı faciələrindən olan Xocalı soyqırımı baş verdi. Vətənimizin ürəyinə xəncər tək sancılan və hələ də sağalmayan Şuşa, Laçın yaraları məhz bu ildə közərməyə başladı...

Vətənimizin belə ağır, müsibətli günlərində Vüqar Cəlilabad RHK tərəfindən hərbi xidmətə çağırılır. Daxili Qoşunların 67987 saylı hərbi hissəsinin sıravi hərbi qulluqçusu olan V.Niftullayev Vətənə olan müqəddəs borcunu torpaqlarımızın müdafiəsində ayıq-sayıq dayanmaqla yerinə yetirməyə başlayır.

Vüqarın döyüş yolu qısa olsa da qəhrəmanlıq nümunələri ilə zəngin olmuşdur. Ata və anasının xeyir-duasını alan cəsur döyüşçü andına sadiq qalaraq Vətənin müdafiəsi uğrunda son damla qanınadək döyüşdü.

**27 iyun 1992-ci il.** Ağdamın Aranzəmin kəndi uğrunda döyüşlər daha da şiddətlənmişdi. Kəndi müxtəlif çaplı silahlardan aramsız atəşə tutan daşnak qüvvələri, buranı ələ keçirmək üçün geniş hücuma keçmişdilər. Vüqar kəndin müdafiəsində dayanan əsgərlərimizlə birgə düşmənə qarşı mərdliklə vuruşaraq, onların məkrli niyyətlərini gözlərində qoyurdu. O, bu döyüşdə əsl mərdlik və qəhrəmanlıq nümunəsi göstərdi. Həmin savaşda düşmən Vüqarın, eləcə də yoldaşlarının müqavimətini qıra bilmədi. Lakin bu, onun son mübarizəsi olur. İgid döyüşçümüz doğma Şəhriyar kəndində dəfn edilib.

Hərbi qulluqçumuzun şərəfli ömür yolu barədə yazılara xanım ziyalımız, jurnalist Solmaz Məmmədovanın Cəlilabad şəhidlərindən bəhs edən, 2001-ci ildə Bakıda nəşr olunan **"Xatırla məni"** adlı kitabında rast gəlmək olar. Müəllif kitabda yer alan "On uşaqdan biri" başlıqlı məqaləsini sıravi V.Niftullayevin həyat və döyüş yoluna həsr edib. Məqalədə ən təsiredici məqamlardan biri isə şəhidin atası Mirzəbala kişinin Vətənin müdafiəsinə yollanan oğluna verdiyi xeyir-duasıdır:

**"Bu ocaqdan heç vaxt naxələf oğul çıxmayıb. Vaxtilə İkinci Dünya müharibəsindən sinəsi orden və medallarla qayıdan Fətulla əminin döyüş yolu sənin üçün nümunə, məktəb olmalıdır. Gün o gün olsun ki, evə qələbə müjdəsi ilə qayıdasan".**

Müəllif Vüqarın döyüş yolu barədə yazır: **"Əyninə əsgər paltarını geyəndən, əlinə silah alandan Ağdamın Naxçıvanlı kəndinin keşiyini çəkdi. Döyüş yoldaşları ilə birgə düşmənin kəndə bir addım belə atmasına yol vermədi. Yastığı səngər, yorğanı sinəsinə basıb qoruduğu avtomat silahı oldu. Döyüşdə olduğu qısa müddətdə bu avtomatla neçə-neçə erməni dığasının axırına çıxmışdı. Adı kimi vüqarlı, şir ürəkli bu gənc qorxu bilmədən həmişə döyüşə atılardı".**

**Allah şəhidlərimizə rəhmət eləsin!**

**kapitan A.Əhmədov,**
**Mənəvi-psixoloji hazırlıq şöbəsində muzey rəhbəri**

# GENERALLARIMIZ...

***Hər bir xalq özünün tarixi abidələri, şəxsiyyətləri ilə fəxr edir. Bunlar millətin, xalqın qədimliyindən və qəhrəmanlığından soraq verir. Yer üzündə elə bir xalq, millət yoxdur ki, onun heç olmasa yaxın keçmişdə belə fəaliyyət göstərən tarixi şəxsiyyəti olmasın.***

***Azərbaycan xalqının tarixi keçmişi və tarixi şəxsiyyətləri bir çox yüzilliklərdən məlumdur. Fəxrlə demək olar ki, tarixi şəxsiyyətlərdə onun bəxti gətirib. Xüsusilə alimlərimiz, qəhrəmanlarımız, ədib və şairlərimiz qibtə ediləcək dərəcədə çoxdur. Başqa millətin, xalqın tarixi şəxsiyyətini özününküləşdirmək üçün heç kəsin qapısına getməmişik və heç bir millətin oğlunu öz adımıza çıxmaq iddiasında da deyilik.***

***Hələ qədimdən Azərbaycanda elə nəsillər, qəbilələr olub ki, onlar mərdliyi, qoçaqlığı, döyüşkənliyi ilə təkcə özümüzdə yox, bütün Şərqdə, Avropada tanınıblar. Naxçıvanda Şahtaxtinskilər, Kəngərlilər, Bakıda Bakıxanovlar, Qazaxda Qayıbov, Şıxlinski və Vəkilovlar, Borçalıda Yadigarovlar, Şəkidə Çələbilər, Gəncədə Cavadxanlar, Ziyadxanovlar və Rəfibəyovlar, Qarabağda Qacarlar, Cavanşirlər və Mehmandarovlar, Lənkəranda Talışinskilər və başqaları el qeyrəti çəkən, ana torpağın üstünü təhlükə alanda birləşib ayağa qalxan, onun hər qarışı uğrunda canlarından keçən oğullar yetiriblər.***

***Tarixi sənədlər şahidlik edir ki, bu nəsillərin övladlarının əksəriyyətindən görkəmli sərkərdələr, generallar da yetişmişdir. Hərb tariximizin yorulmaz tədqiqatçı-jurnalisti Şəmistan Nəzirlinin bu generallarımız barədə qələmə aldığı çox qiymətli tarixi məlumatları oxucularımıza təqdim edirik.***

## KƏLBALI XAN NAXÇIVANSKİ

Nə Azərbaycan, nə də rus hərb tarixində general-mayor Kəlbalı xan Naxçıvanskinin anadan olduğu il barəsində dəqiq məlumat yoxdur. Ümid verən arxivlərdə, inqilabdan əvvəlki hərbi tarixi mənbələrdə nə qədər axtardıqsa, onun təvəllüd ilini dəqiqləşdirə bilmədik. İnqilabdan əvvəlki ədəbiyyatlarda general Kəlbalı xan Naxçıvanskinin bir neçə yerdə səthi də olsa adı çəkilir və



hərbi fəaliyyəti qeyd olunur.

Kəlbalı xan Naxçıvanın sonuncu hakimi Ehsan xanın oğludur. Zaqafqaziya Rusiya ilə birləşəndən sonra general rütbəsi alan Ehsan xan 1928-ci il fevralın 10-da Rusiya ilə İran arasında Türkmənçay sülh müqaviləsini imzalayanlardan biri olmuşdur. O, burada İrəvan və Naxçıvan xanlığının, Ordubad dairəsinin səlahiyyətli nümayəndəsi kimi iştirak etmişdir.

Hərbi tarixçilər V.Potto, İ.Zinovyev, general V.Zubov, İ.Paskeviç və yazıçı A.Qriboyedovun yol qeydlərindən məlum olur ki, Rus - İran müharibəsi zamanı Ehsan xan naxçıvanlılardan və ruslardan ibarət olan on min nəfərlik qoşuna başçılıq etmişdir. Bu müharibədə ad-san qazanan general Ehsan xan sonralar Krım müharibəsində də şücaətlə vuruşmuş, ali hərbi ordenlərlə təltif olunmuşdur. Görkəmli sərkərdə kimi Ehsan xanın adı Kremlin Georgi salonunda qızılı hərflərlə yazılmışdır.

Tarix öz səhifələrində bir maraqlı faktı da saxlayıb: Aleksandr Qriboyedov və Abbasqulu ağa Bakıxanov İrana gedəndə Ehsan xanın Xandikindəki evində qonaq olmuşlar. Bu barədə A.Qriboyedovun "İrəvan yurüşü" yol qeydlərində maraqlı sətirlər var:

"Sübh tezdən oyanırıq: bərk isti idi. Abbasqulu ağa nəql elədi ki, Yelizavetpol döyüşü şair Nizaminin məqbərəsi yanında baş verib.

Naxçıvandan səkkiz mil aralıda dayanmışıq. Araz kənarından Abbasabadın geniş mənzərəsi açılır. Şimal-şərqdən Qarabağ dağlarının, Naxçıvan düzənliyinin möcüzəli gözəlliyi açılır. Arazın arxası Yaylandağla və ona oxşar iki başqa dağla əhatə olunub. Qərbə doğru baxanda isə Ağrıdağı ucalır. Naxçıvan özü isə Qarabağ dağlarının davamı olan düzəngahda yerləşir.



*Naxçıvan generalları. XIX əsr.*

Naxçıvana daxil olduq. Xan evinin qülləsi mənim otağımın pəncərəsindən daha aydın görünür".

1826-cı ildə Fətəli şahın vəliəhdi Abbas Mirzə altmış minlik qoşunla Arazı keçib Azərbaycana hücüm etdi. Bu vaxt Ehsan xan Abbasabad qarnizonunun rəisi idi. Ehsan xanın qalanı iranlılara təslim etmək istəmədiyini görən Abbas Mirzə şah qoşununun qırx minini İrəvan və Naxçıvana yeritdi. Həmin döyüşlərin şahidi olan məşhur tarixçi Mirzə Adıgözəlbəy yazırdı:

"O vaxt naxçıvanlı Ehsan xan Abbasabad qalasının mühafizi idi. Orada olduğumu bilib yanıma qasid göndərdi. O, mənə xəbər verdi: "Knyaza (Qafqaz canişini, baş komandan İ.F.Paskeviç nəzərdə tutulur - Ş.N.) bildirin ki, bu tərəfə hərəkət etsin, buraya gələn kimi qalanı ona təslim edərəm".

"Qafqaz hərbi-tarix muzeyi"nin 1913-cü ildə nəşr etdiyi altı yüz otuz bir nömrəli "Soraq kitabçası"nda general Kəlbalı xan Naxçıvanskinin məşhur xan nəslindən olduğu qeyd olunur: "O, on dörd yaşında ikən Peterburqdakı zadəgan balalarına məxsus pac korpusuna daxil olur. Əla oxuyan Kəlbalı xana məktəbdə tam təhsil almaq qismət olmur. Qəfil xəstələndiyinə görə vətəni Naxçıvana qayıdır.

Bir müddət müalicə olunduqdan sonra 1849-cu ildə könüllü olaraq Dağıstan yürüşündə iştirak edir. Gergebel döyüşlərində göstərdiyi igidliyə görə üçüncü dərəcəli "Müqəddəs Stanislav" ordeni ilə təltif olunur və zabit rütbəsinə layiq görülür".

1853-cü ildə Krım müharibəsi başlananda yerli bəylərdən ibarət süvari alayı təşkil edir. Bir il sonra, iyunun 19-da Kəlbalı xan Naxçıvanski Çınqıl döyüşündə fərqləndiyinə görə dördüncü dərəcəli "Müqəddəs Georgi" ordeni ilə təltif olunur.

Həmin il iyulun 30-da rus ordusunun general-leytenantı, İrəvan süvari alayının rəisi Vrangel Qafqaz ordusunun baş komandanına məlumat göndərmişdi. General təkcə Kəlbalı xan haqqında deyil, həmçinin, döyüşdə igidliklə vuruşan oğullarımız barədə fəxrlə yazırdı:

"Qoşunlarımızın hədsiz igidliyi barədə əlahəzrət cənabınızın qarşısında təkrarən şəhadət verməyi özümə borc bilirəm ki, zabit və əsgərlər döyüşə həvəslə gedirlər: yüngül yaralananlar cəbhəni tərk etmir, yaralılar isə döyüş meydanında qalırdılar. Tibb işçiləri elə oradaca onlara yardım göstərirdilər. 18 iyul tarixli ilk məlumatında adları çəkilən kapitan İsmayıl xandan (Kəlbalı xanın qardaşıdır. 1877-ci il dekabrın on doqquzunda süvari qoşunu general-mayoru rütbəsi almışdır - Ş.N.) və podporuçik Kəlbalı xandan başqa müsəlmanlardan ibarət bəy drujinasından praporşiklər Əli xan və Paşa xanın, dörd nömrəli müsəlman polkundan kapitan Hüseyn Sultanın adlarını çəkməliyəm. İsmayıl xanla Kəlbalı xan hücum zamanı öz hissələrinin önündə gedərək onlara qorxmazlıq nümunəsi göstərirdilər. Onlar da döyüşlərdə bu məlumatda adları çəkilənlərlə bərabər iştirak edirdilər.

Yanımda volonter (fədai, könüllü əsgər) işləyən Xancan xan Məmmədqulu oğlunu da həmçinin müəyyən göstərişlərlə göndərirdim... Onlar yaralanır, ancaq döyüş meydanını tərk etmirdilər".

1855-ci ildə imperator II Aleksandrın tacqoyma mərasimi günü Kəlbalı xan leybqvardiya Qusar polkuna komandir təyin olunur. Bundan sonra Qafqaz canişinliyinin sərəncamında xidmət edir. Müxtəlif batalyon və polkların komandiri olur. Nizami ordudakı nümunəvi xidmətinə və əla komandirlik fəaliyyətinə görə 1874-cü ildə general-mayor kimi yüksək rütbəyə layiq görülür. 1877-78-ci illərdə rus - türk müharibəsində general Kəlbalı xan Naxçıvanski nizami süvari briqadanın komandiri təyin olunur. Bütün döyüşlərdə mərdliklə vuruşan azərbaycanlılardan ibarət İrəvan süvari briqadasının komandiri Kəlbalı xan hərbi əməliyyatlarda böyük şücaət göstərmişdir. Bu müharibədə onun qəhrəmanlığı brilyantla bəzədilmiş qılıncla və "Müqəddəs Georgi" ordeni ilə təltif edilmişdir. General-mayor Kəlbalı xan Ehsan xan oğlu Naxçıvanski 1883-cü ildə vəfat etmişdir.

Sənədləri araşdırarkən məlum oldu ki, Ehsan xan oğluna Kəlbalı xanın adını qoymuşdur. Ona görə də mənbələrdə iki Kəlbalı xan adına rast gəldik. Baba Kəlbalı xan Naxçıvanski haqqında Azərbaycan Sovet Ensiklopediyasının yeddinci cildində qısa da olsa məlumat verilir:

"Kəlbalı xan Naxçıvanski (?-1823, Təbriz) Naxçıvan xanı. Rusiyadan hərbi yardım istədiyi üçün altı il Tehranda həbsdə saxlanılmış, gözünün biri çıxarılmışdı. Fətəli şah hakimiyyət başına gəldikdən sonra İrəvan xanlığında yaşamışdır. Abbas Mirzə tərəfindən Naxçıvana vali təyin olunan Naxçıvanski İran hökumətinə xidmət etmək istəmədiyindən Məkkəyə ziyarətə getmək bəhanəsilə yerinə oğlu Ehsan xanı təyin edib hakimiyyətdən uzaqlaşmışdı".

Oxucuların nəzərinə bir maraqlı faktı da çatdırmaq istərdim: XIX əsrin ortalarında Naxçıvanda "Qönçeyi-ülfət" adlı ədəbi məclis fəaliyyət göstərirdi. Bu məclisə o vaxtlar Naxçıvan şəhər rəisinin müavini işləyən məşhur gürcü şairi Nikoloz Barataşvili də tez-tez gələrdi. O, burada on səkkiz yaşlı Qönçəbəyim adlı çox istedadlı bir qızla tanış olub dostlaşır. Lirik qoşmaları ilə bu gün Azərbaycan ədəbiyyatında yaşayan həmin Qönçəbəyim general-mayor Kəlbalı xan Naxçıvanskinin bacısıdır.